# "İlk poliqrafçı alim" Miniatür Kitab

Azərbaycanda Miniatür kitab muzeyinin fəaliyyətə başlamasının 20 illiyi bu ilin aprel ayında tamam olub. Yubiley yaşının daha böyük tarixi əhatə etməsi təqdir olunan amildir. Ancaq Azərbaycanda Miniatür kitab muzeyinin 20 illik yubileyi xüsusi əhəmiyyət kəsb edir.

Məlum məsələdir ki, əvvəllər bizim Miniatür kitab muzeyimiz olmayıb. Mədəniyyətimizin bu mühüm sahəsinin tarixi ona görə çox da böyük rəqəmlə ifadə olunmur. 2002-ci ildə görkəmli mədəniyyətşünas Zəhra Salahovanın təşəbbüsü ilə ilk özəl Miniatür kitab muzeyi yaradılıb.

Məlumat mənbələrində bu muzeyin yaradılması ilə bağlı maraqlı məlumatlara rast gəlirik. Zəhra Salahova hələ ötən əsrin 80-ci illərinin əvvəllərində ilk miniatür kitabla Moskvada qarşılaşır. Şəxsi vəsaiti ilə bir neçə miniatür kitab əldə edir. Bundan sonra, ümumiyyətlə, miniatür kitab mədəniyyətinin tarixi ilə yaxından maraqlanması onu miniatür kitab kolleksiyası yaratmağa ruhlandırır. Beləliklə, topladığı kolleksiyanı bir mərkəzdə yerləşdirməyin təşəbbüsündə olur. İçəri şəhərdə müvafiq məkan ayrılır. Və burada Azərbaycan Miniatür kitab muzeyi təşkil olunur. Bu muzeyin ekspozisiyasında bir neçə bölmələr var ki, bu bölmələrin adı da məzmunu haqqında kifayət qədər məlumat verir: “Azərbaycanda nəşr olunmuş kitablar”, “Nadir miniatür kitablar”, “Dini ədəbiyyat miniatür kitablarda”... hətta burada Puşkinin adı ilə bağlı “Puşkiniana” bölməsi də var.

Onu da qeyd edək ki, Miniatür kitab muzeyi Azərbaycanın müstəqillik dövrü ilə bağlı örnəkləri də öz xəzinəsinə daxil etmişdir. “H.Əliyev. Əsrin müqaviləsi” (1998) nəfis tərtibatlı kitab muzeyə yolu düşənlərin hər birisində maraqlı təəssürat oyadır. Onu da qeyd etmək lazımdır ki, Zəhra Salahovanın zəhməti sayəsində bu muzeyə Rusiya, ABŞ, Yaponiya, İngiltərə, Fransa, İtaliya, Almaniya, Çexiya, Slovakiya, Macarıstan, Kuba, İsveçrə və əlbəttə, həm də keçmiş Sovet respublikalarında nəşr olunan miniatür kitablar buraya yolu düşənlərin hamısının marağına səbəb olur.



Azərbaycanın görkəmli poliqrafçısı, naşiri və həm də, əlbəttə, xalqımızın ilk poliqrafçı alimi Şəddat Cəfərovun nəşr etdiyi miniatür kitablar da muzeydə yer alıb. Bu barədə Şəddat Cəfərovun özü belə deyir: “Ümumiyyətlə, miniatür kitab mədəniyyəti xalqın mənəvi inkişafının nəticəsidir. Azərbaycana gələn ziyalı qonaqlar öz səfərlərinə çox vaxt elə Miniatür kitab muzeyindən başlayırlar. Onlar yaxşı bilirlər ki, miniatür kitab nəşrinə qədər poliqrafiya sahəsi müəyyən inkişaf yolu keçməlidir. Xalqın mənəvi mühitində miniatür kitab mədəniyyəti haqqında müəyyən təsəvvür formalaşmalıdır. Mən yaxşı bilirəm ki, görkəmli mədəniyyətşünas Zəhra Salahovanın böyük zəhməti sayəsində bu muzeyə nadir incilər toplanıb. Maraqlıdır ki, Zəhra Salahova dünyanın mənəvi mühitini bu muzeydə ehtiva edə bilib. Mənim müşahidələrim göstərdi ki, zənnimdə yanılmamışam. Çünki bu muzeydə həm qərb, həm də şərq mədəniyyətləri birbirinə qovuşur. Şərq ölkələrindən gətirilmiş nadir nümunələr hətta bəzən qədim nüsxələr orijinal formatları və gözoxşayan nəşr üslubları ilə diqqəti çəkir”.

Şəddat müəllimin sözlərindən göründüyü kimi qərb ölkələrində nəşr olunmuş yüksək səviyyəli miniatür kitablarla, şərq ölkələrindən gətirilmiş nadir nüsxələrin qovuşuğu müəyyən harmoniya yaradır. Şəddat müəllim deyir ki, bu muzeyə daxil olanda sanki qeyri-adi bir aləmə düşürsən. Qədim miniatür nəşrlər vaxtı ilə bu kitabları hazırlayan çapçılar, ustalar, naşirlər haqqında sanki dil açıb danışır.

Azərbaycanın müstəqillik qazanmasından əvvəlki dövrdə də az da olsa, miniatür nəşrlər olub. Amma, əlbəttə, əvvəllər bu sahəyə bir o qədər diqqət göstərilmirdi.

Onu da deyim ki, Şəddat müəllim hələ Sovet dövründə ideoloji sistemin sifarişi ilə də miniatür kitab hazırlamışdı. Yəni yeni dövr üçün bu fəaliyyətdə onun kifayət qədər təcrübəsi vardı.

Mən Şəddat müəllimin rəhbərliyi ilə hazırlanmış bir neçə miniatür kitabı özüm də görmüşəm, vərəqləmişəm. Ümumiyyətlə, miniatür kitabın hazırlanması xüsusi diqqət tələb edir. Burada həm zərif əl işi, həm də poliqrafik fəaliyyət əlaqəli icra olunur. Vaxtı ilə Şəddat müəllimin rəhbərliyi ilə hazırlanmış “Nijad. Həyat haqqında düşüncələr” kitabı da gözlərimin önündədir. Şəddat müəllimin orijinal publisistikasından örnəklər və ədəbi, fəlsəfi məzmunlu Rənglərin oyanışı” şeirlər silsiləsindən nümunələr bu kitabda yer alıb.

Hamımıza məlumdur ki, hər bir kitab abidədir. Yazılan əsərləri müəyyən urvatda, yüksək texniki və estetik görkəmdə araya gətirmək elə də asan məsələ deyil. Onu da deyim ki, Şəddat müəllim miniatür kitabları dövrün çap işinin güzgüsü adlandırır. O, nəşr etdiyi miniatür kitabların muzeyə verilməsi ilə bağlı da düşüncələrini bizimlə bölüşdü: “Mən muzeyə bir neçə miniatür kitab təqdim etdim. Bu barədə AzərTac geniş və əhatəli məlumat verdi. Elə bizim “Kredo” qəzetində də “Azərbaycanda miniatür kitab fəlsəfəsinin ustadı” adlı maraqlı yazı da çap olundu. Əlbəttə, nəşr etdiyim hər bir kitab mənim üçün əzizdir. Ancaq yazıçı-publisist Sevda Əlibəylinin “İlk poliqrafçı alim” kitabı mənim əsas peşəmə güzgü tutduğu üçün hər vaxt diqqətimdə olub. Bu kitabın miniatür variantını hazırlamaq haqqında düşünürdüm. Axır ki, qəlbimin bu istəyini başa çatdıra bildim. Sözümün canı odur ki, həyatımın bir parçasını bu kitabda gördüyüm üçün yox, miniatür kitabda gördüyüm üçün daha çox fərəhlənirəm. Əlbəttə, mən muzeyə digər miniatür kitabları da bağışladım. Elə Nijadın kitabını, Zəlimxan Yaqubun “Saz” poemasını miniatür kitab formatında muzeydə görmək qəlbimi fərəh hissi ilə doldurur. Bu sırada jurnalist İsaq Əmənullayevin “Mənalı poliqrafçı ömrü” kitabı




da ayrıca qeyd olunmalıdır. Müəlliflə çoxdanın tanışıyam. Dostluq və yaradıcılıq əlaqələrimiz uzun illər davam edib. Onun haqqımda yazdığı “Mənalı poliqrafçı ömrü” əsəri nəfis şəkildə Azərbaycan, rus, ingilis, ərəb dillərində 2015-ci ildə bir kitabda çap olunub. Həmin kitabın miniatür variantını hazırlamaq da əslində mənim poliqrafiya təcrübəmin ideyası kimi yaranmışdı”.

Bu kitabın miniatür nüsxəsinin rəyçisi tarix elmləri doktoru, professor Əsədulla Cəfərovdur. Redaktor BDU-nun Jurnalistika fakültəsinin dosenti Mahmud Mahmudov idi. O, kitaba maraqlı bir “ön söz” də yazıb. Həmin “ön söz”dən bəzi məqamları oxuculara da çatdırmaq istərdim: “Nəşriyyat-poliqrafiya işində müstəsna xidmətlər göstərmiş və böyük uğurlara nail olmuş Şəddat Muğdat oğlu Cəfərov bu çətin, mürəkkəb və şərəfli sahədə özünəməxsus ad qazandı. Necə deyərlər o, bu sahənin - poliqrafiya, nəşriyyat işinin kamil bilicisi kimi ən yüksək zirvəyə ucaldı. Sevindirici haldır ki, nəşriyyat-poliqrafiya sahəsində Şəddat Cəfərov məktəbi, ənənəsi yarandı və s. bu sahənin kamil bilicisi kimi Azərbaycanın ilk poliqrafçı alimi olaraq ensiklopediyaya düşdü. İqtisad üzrə fəlsəfə doktoru - Poliqrafçı alim, naşir və yazıçı Ş.M.Cəfərov bu ilin yubilyarı kimi oxucularına xoş ovqat bəxş edib”.




Əlbəttə, miniatür kitabın “ön söz”ündə ifadə olunmuş bu fikirlər təkcə bir nəfərin qənaəti kimi yox, Azərbaycanda nəşriyyat işinə bələd olanların, bu sahənin çətinliklərini bilən hər kəsin diqqətini cəlb edəcək. Əsas da ona görə ki, miniatür kitab özü canlı orqanizm kimi dünyanın miniatür muzeylərini gəzəcək. Ayrı-ayrı miniatür kitab kolleksiyaçılarının xəzinələrinə daxil olacaq. Və, demək, əsərin qəhrəmanı haqqında gələcək zamanların miniatür kitab tədqiqatçılarına da dolğun məlumat verəcək. Həm də elə Azərbaycanda miniatür kitab mədəniyyətinin təmsilçisinə çevriləcək. Miniatür kitab sənəti artıq qeyd etdiyimiz kimi mədəniyyətin xüsusi bir sahəsidir. Və bu sahənin ayrıca tədqiq olunması gələcək tədqiqatçıların işidir. Şəddat Cəfərovun “Kitab gözəlliyinin elmi mahiyyəti” kitabı da müəllif əsəri kimi ayrıca təqdir olunmalıdır. Fatma Həsənqızının “Acılı-şirinli günlər” kitabının ədəbi qəhrəmanı da Şəddat Cəfərovdur. Sevda Əlibəylinin “İlk poliqrafçı alim” kitabının məziyyətləri haqqında isə yuxarıda bəhs etdik. Bir sözlə, ustadın miniatür kitab sənətində də ayrıca yeri var. Həm də ədəbi qəhrəman kimi, həm də miniatür nəşrlərin ustadı kimi.

Şəddat Cəfərovun miniatür kitablarının Miniatür kitab muzeyində təqdim olunması zamanı Azərbaycanın görkəmli mədəniyyət xadimləri çıxış etdilər. Miniatür kitab janrının formalaşmasında və bu sahənin inkişaf etdirilməsində Şəddat Cəfərovun xidmətləri yüksək qiymətləndirdilər.

İllər keçəcək, Azərbaycanda Miniatür kitab muzeyinin fəaliyyəti də tədqiqat obyekti olacaq. Burada olan nadir kitablar zaman-zaman gələcək nəsillərə də tanıdılacaq. Şübhəsiz, o zaman Azərbaycanda miniatür kitab fəlsəfəsinin ustadı Şəddat Cəfərovun da adı hörmətlə çəkiləcəkdir.

Ustad indi fəaliyyətinin kamil dövrünü yaşayır. Poliqrafiyamızın inkişafı üçün əlindən gələni əsirgəmir. O, poliqrafiyanın inkişafı ilə bağlı elmi əsərlər yazır. Bir elm kimi poliqrafiyanın Azərbaycanda öyrənilməsi üçün fəaliyyətini əsirgəmir.

*Ə.R.* Xələfli